# "Xalq düşməni"nin qardaşı

## Qardaşı güllələnən Alim Yusifzadə təhlükəsizlik orqanlarında məsul vəzifədə çalışıb

**XX əsrin əvvəllərində Azərbaycan mətbuatında Əli Yusif Rai imzası ilə tanınan şair, publisist Əli Yusif Yusifzadə haqqında ötən saylarımızdan birində geniş məlumat vermişdik. O Əli Yusif ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1 senytabr 1919-cu il tarixli qərarı ilə Avropada ali təhsil almaq üçün göndərilən tələbələrdən biri idi. Təhsilini başa vurub geri gələn bu cümhuriyyətçi tələbə sonra öz vətənində "xalq düşməni" kimi həbs edilib sürgünə göndərildi və güllələndi.**

Bu gün onun sonbeşik qardaşı Alim Yusifzadə haqqında oxucuma məlumat vermək istərdim. O Alim Yusifzadə ki, "xalq düşməni" (Əli Yusif) elan edilmiş cümhuriyyət tələbəsinin qardaşı olmasına baxmayaraq, M.C.Bağırovun Azərbaycana rəhbərlik etdiyi dövrdə təhlükəsizlik orqanlarında məsul vəzifədə çalışmış, şöbə rəisi vəzifəsinə kimi ucalmışdı.

Əli Yusif Yusifzadə haqqındakı məqaləmdə qeyd etmişdim ki, 1990-cı illərdə Alim Yusifzadəni M.F.Axundov adına kitabxanada Qulam müəllimin (Məmmədli) yanında görmüşdüm. Onun haqqında ilk məlumatı da Qulam müəllimdən almışdım.

### QARABAĞLI YUSİFZADƏLƏR

Əvvəla, onu qeyd edim ki, Azərbaycanın müəyyən dövr tarixində öz möhürünü basmış dəyərli nəsillər çox olub. Belə soyadlardan biri də söy-kökləri, ad-sanları ilə Qarabağda böyük hörmət-izzət sahibi olan Yusifzadələr idi. Maarifə, elmə olan maraqları onları hələ o zaman Avropa ölkələrinə kimi aparıb çıxarıb. Odur ki, bu soy-kök haqqında bir az geniş məlumat vermək yerinə düşər.

Yusifzadələr haqqında M.M.Nəvvabın əsərlərində də yetərincə məlumat verilib. Tədqiqatçı Ə.Çingizoğlunun yazdığına görə, Yusifzadələrin başçısı Mirzə Ağa Yusif olub. İbrahim xanın sarayında xidmət edən Mirzə Ağa Yusif alim, şair, nüfuzlu ağsaqqal kimi təkcə sarayda deyil, bütün Qarabağ əhli yanında böyük hörmətə malik olub. Mirzə Ağa Yusifin oğlu Əliqulu və nəvələri Ələkbər, Abbas da babaları kimi savadlı, nüfuzlu şəxsiyyətlərdən olublar.

### SONBEŞİK

Alim Cəlal kişinin sonbeşiyi olub. 1917-ci ildə anadan olan Alim də qardaşları kimi ilk olaraq dini təhsil alıb. Sonra rus-tatar məktəbində oxuyan Alim ali təhsilə Azərbaycan Pedaqoji İnstitutunda yiyələnir və bir neçə il Salyanda müəllim işləyir.

Sovet ordusu sıralarında qulluğunu başa vurduqdan sonra Alim Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində işə başlayır. (O, zaman Azərbaycan DTK-da işləyən azərbaycanlılar barmaqla sayıla biləcək dərəcədə az olub - müəl.).

Bütün varlığı ilə istiqlala bağlı olan, canını belə bu yolda qurban verən Əli Yusiflə qardaşı Alim arasında həm dünyagörüşü, həm də düşüncə tərzi baxımından çox böyük fərq olub. Azərbaycan DTK-da şöbə rəisi vəzifəsinə kimi ucalan Alim Əli Yusiflə ata bir, ana ayrı qardaşlar olub. (Əli Yusifin anası Leyla xanım vəfat edəndən sonra atası Mirzə Cəlal əmisi qızı Zibeydə xanımla evlənib. Alim Zibeydə xanımdan olan övladıdır).

Orduda vzvod komandiri olan Alim 1941-ci ildə əks-kəşfiyyat məktəbinə göndərilir. Sonra Stalinqrad, Xarkov, Kiyev, Praqa şəhərlərinin azad edilməsi uğrunda vuruşlarda iştirak edən Alim Yusifzadə üç dəfə kontuziya alsa da, 1952-ci ilə kimi təhlükəsizlik orqanlarında fəaliyyətini davam etdirir.

1953-cü ildən elmlə məşğul olmağa başlayan Alim Yusifzadə uzun illər Azərbaycan Xarici Dillər İnstitutunda müəllim, kafedra müdiri, dekan, prorektor vəzifələrində çalışıb.

1937-ci ilin od-alovunda "xalq düşməni"nin qardaşı adını daşımış, təhlükəsizlik orqanlarında yetişmiş Alim Yusifzadə ona xəyal kimi görünən müstəqilliyimizin də bərpasını gördü.

Sonda Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tarixşünas alim Yaqub Mahmudovun tədqiqatçı alim Ədalət Tahirzadənin "Aşurovlar" kitabına yazdığı "Ön söz"dən bu sözləri xatırladım: "Hər bir xalqın tarixi həm də milli-mənəvi ənənələrin tarixidir, nəsillərin arasındakı varisliyin tarixidir. Bu baxımdan xalqın tarixini incəliklə ortaya qoymaq üçün ayrı-ayrı nəsillərin keçmişini öyrənmək də ən mühüm amillərdən biridir".

Bəli, bu tarixi doğru, dürüst tədqiq edərək gənc nəsillərə çatdırmalıyıq ki, tarixdən ibrət dərsi götürsünlər. Onsuz da zaman kimin kim olduğunu gec-tez faş edir. Biz bunu istəsək də, istəməsək də, bu belədir.

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***